## Xurşidbanu Natəvanın həyat və yaradıcılığının əsas tarixləri

| | |
|---|---|
| **1832-ci il 6 avqust** | Mehdiqulu xan qızı Xurşidbanu Natəvan Şuşada anadan olmuşdur. |
| **XIX əsrin 50-ci illərin** | Natəvan yaradıcılığa başlamışdır. |
| **1850-ci ilin payızında** | Xasay bəy Şuşaya gəlib toy etmiş və Xurşidbanunu Dağıstana — öz doğma kəndinə, oradan da Tiflisə aparmışdır. |
| **1855-ci ildə** | Xurşidbanunun oğlu Mehdiqulu dünyaya gəlmişdir. |
| **1856-cı ildə** | Qızı Xanbikə dünyaya gəlmişdir. |
| **1858-ci il** | Bakıda məşhur fransız yazıçısı Aleksandr Düma ilə rastlaşmışdır. |
| **1869-cu il** | Natəvan ikinci dəfə rəiyyət içərisindən çıxmış Seyid Hüseyn adlı bir şuşalıya ərə getmiş, bu hərəkəti ilə bəy və mülkədarları qəzəbləndirmişdir. |
| **1870-ci il** | Şairə özünə "Natəvan" (köməksiz, zəif, xəstə) təxəllüsü götürərək, dərin məzmunlu qəzəllərini yaratmışdır. |
| **1872-ci il** | Ədəbiyyat tariximizdə məşhur olan "Məclisi-üns" cəmiyyətini təşkil etmişdir. |
| **1873-cü il** | Şuşaya su kəmərini çəkdirmişdir: bu su kəməri indi də "Xan qızı bulağı" adı ilə məşhurdur. |
| **1886-cı il** | 227 səhifədən ibarət "Gül dəftəri" adlı şeir və rəsmlərdən ibarət albomu tərtib etmişdir. |
| **1897-ci il 1 oktyabr** | Xurşidbanu Natəvan vəfat etmişdir və Ağdamın "İmarət" qəbiristanlığında dəfn olunmuşdur. |

| | |
|---|---|
| **1928-ci il** | İlk mətbuu əsəri "Natəvan (Xurşid Banu)" Hənəfi Zeynallının redaktəsi ilə "Azərnəşr"də ərəb qrafikasında nəşr edilmişdir. |
| **1932-ci il 10 oktyabr** | Azərbaycan vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə Xan qızı Natəvanın evində ilk uşaq musiqi məktəbi – "Şuşa Musiqi məktəbi" fəaliyyətə başlamışdır. |
| **1937-ci il** | Natəvanın şeirləri rus dilinə tərcümə edilərək Moskva, Leninqrad və Bakıda nəşr olunan jurnal və kitablarda hissə-hissə çıxmışdır. |
| **1938-ci il** | "Şeirlər" adlı kitabı Məmməd Rahimin redaktəsi ilə "Azərnəşr"də köhnə latın qrafikasında nəşr edilmişdir. |
| **1956 –cı il** | "Şeirlər" adlı kitabı M. A. Sultanovun redaktəsi ilə "Azərnəşr"də çapdan çıxmışdır. |
| **1981-ci il** | "33 qəzəl" adlı kitabı "Gənclik" nəşriyyatında nəşr olunmuşdur. |
| **1984-cü il** | İlk akademik nəşri - "Əsərləri" "Yazıçı" nəşriyyatında çapdan çıxmışdır. |
| **1985-ci il** | Xurşidbanu Natəvan adına Respublika uşaq (vərəm) sanatoriyası yaradılmışdır. |
| **1987-ci il** | Xurşidbanu Natəvanın evində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xurşidbanu Natəvan adına Qarabağ filialı fəaliyyətə başlamışdır. |
| **1989-cu il** | Natəvan yaradıcılığının böyük tədqiqatçısı Bəylər Məmmədov "Natəvanın şair qohumları" kitabı işıq üzü görmüşdür. |
| **1991-ci il** | Təbriz şəhərində "Seçilmiş əsərlər"i ərəb qrafikasında nəşr edilmişdir. |

| | |
|---|---|
| **1993-cü il** | Üzeyir Hacıbəyov, Xan qızı Natəvan, Bülbülün ermənilər tərəfindən Şuşada güllələnmiş heykəlləri Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıya gətirilmiş və Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində yerləşdirilmişdir. |
| **2004-cü il** | Bəylər Məmmədovun tərtib etdiyi və ön söz yazdığı "Əsərləri" "Lider" nəşriyyatında çapdan çıxmışdır. |
| **2012-ci il 3 aprel** | Azərbaycan Respblikasının Prezidenti İlham Əliyev "Xurşidbanu Natəvanın anadan olmasının 180 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. |
| **2016-cı il 18 fevral** | Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimi keçirilmişdir. Abidənin müəllifi heykəltəraş İmran Mehdiyevdir. |
| **2018-ci il** | Hollandiyanın Harlem şəhərindəki Montessori kollecində şairə Xurşidbanu Natəvanın poemaları əsasında səhnələşdirilmiş "Xarı & Bülbül" teatr tamaşası təqdim edilmişdir. |
| **2021-ci il** | 16 martda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyov, Xan qızı Natəvan, Bülbülün güllələnmiş heykəlləri Şuşaya gətirilmişdir. |
| **2022-ci il 14 mart** | Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |